

**Namiq Hacıheydərli**
***Şair-publisist***

# Xatirələrin “Dəmir cəngavəri”...

***Hüseynov Bəhruz Yavər oğlu...O, mənim ən sevimli şagirdlərimdən biri idi. Böyük gələcəyinə, yurdumuzun sayılıb-seçilən insanlarından biri olacağına onun 1-ci sinfə qədəm qoyduğu günlərdən əmin olmuşdum. Həyata baxışı, davranışı, verdiyi suallar və ona ünvanlanan suallara verdiyi cavablar Bəhruzu başqalarından çox fərqləndirirdi. O, sanki bu həyatı bir dəfə yaşamış, sonra yenidən dünyaya gəlmişdi. Yaşından böyük idi. Yaşı 6-7 olsa da düşüncəsi böyük idi. Ətrafında baş verənləri analiz edə biləcək qədər böyük idi. Hələ 1-ci sinifdə oxuyanda onların sinfinə daxil olub, uşaqlara “Böyüyəndə kim olmaq istərdiniz”? - ənənəvi sualına onunla eyni partada əyləşən uşaq: “Mən həkim olacam, sonra da mersedes alacam”- cavabını vermişdi. Bu an 6 yaşlı Bəhruz ona iradını bildirdi: “Həm həkim olacam deyirsən, həm də mersedes alacam deyirsən. Həkim mersedesdə gəzmir e, “skoru”da gəzir”- cavabını vermişdi. Uşaqlara çox qaynayıb-***



***qarışmazdı, fərqli dünyası vardı. “Evdə boş vaxtlarında nə ilə məşğul olursan”? – sualına: “Qardaşım Abbasla şahmat oynayıram” – cavabını verməsi də yadımdadı. Deməli, 1-ci sinfə gələnə qədər şahmat oynamağı da öyrənmişdi.***

*Bəhruz, həmkəndlim idi, həm də mənim qohumum idi. O, həmişə rastlaşanda mənə mehribanlıqla “Xalanəvəsi, necəsən”?- deyib hal-əhval tutan dəyərli ağsaqqal qohumum rəhmətlik Fərəhman kişinin nəvəsi və bir-birimizə həmişə “xalaoğlu” - deyə müraciət etdiyimiz, elimizin ziyalı oğullarından biri olan Yavər bəyin oğludur. Gendən gələn alicənablıq, gördüyü tərbiyə və aldığı yüksək təhsil onu mükəmməl gəncə çevirmişdi. Ali təhsilli idi, 2015-ci ildə Azərbaycan Dövlət Texniki Universitetini bitirmişdi. Elə həmin ildə hərbi xidmətə yollanmışdı. 2016-cı ilin aprel döyüşlərində tankçı kimi iştirak etmişdi. O zaman özünü savadlı, bacarıqlı və fitri istedad sahibi olan döyüşçü kimi təsdiq etmişdi. 2020-ci ilin sentyabrında torpaqlarımızın bütünlüyü uğrunda başlayan savaşlara ilk qatılan gənclərdən biri olmuşdu. Füzulinin, Cəbrayılın və Hadrutun azad edilməsində sözün gerçək anlamında əsl qəhrəmanlıq örnəyi göstərmişdi. Bu səbəbdən onu tanıyan hərbçilər arasında “Dəmir cəngavəri” ləqəbi ilə məşhurlaşmışdı. 2020-ci il oktyabr ayının 19-da Xocavəndin Düdükçü kəndindəki yüksəkliklərin azad olunması uğrunda savaşda qəhrəmancasına şəhid olur, Tanrı dərgahına ucalır. Şəhidlik məqamına ucalandan sonra Ali Baş Komandanın əmri ilə “Vətən uğrunda”, “İgidliyə görə”, “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif edilir.*

*O, mənə çox doğma və əziz insan idi. Əlbəttə, yurdumuzun ərazi bütünlüyü uğrunda şəhid olan minlərlə gəncimizin hər biri məndən ötrü əzizdir, doğmadır. Hər birinin ruhu qarşısında baş əyirəm. Ancaq Bəhruzun qəlbimdə hər zaman bir ayrı yeri olub. Bəlkəsiz, onu xatırlamadığım gün yoxdur. Hərdən mənə elə gəlir ki, Bəhruz məhz şəhid olmaq üçün doğulmuşdu. Nədən ki, bu qabiliyyətin, tərbiyənin, fitri istedadın, ali vətən sevgisinin, Tanrı eşqinin yurd saldığı bir vücudun məntiqi sonluğu şəhidlik olmalı idi. Başqa heç bir ölüm onun həyat yolunu və mənəvi dünyasını tamamlaya bilməzdi. Şəhid generalımız Milli Qəhrəman Polad Həşimov kimi, digər qəhrəmanımız Mübariz İbrahimov kimi, dastana dönən şəhidimiz Xudayar kimi...*

***Yanvar ayının 17-si qəhrəman şəhidimizin doğum günüdür. Biz, türkün min illik şüarında deyildiyi kimi “Şəhidlər ölməz, vətən bölünməz”- deyiminə iman edənlərdənik. Bəhruz da ölmədi, əski türklərin dediyi kimi “uçmağa vardı”, Tanrı dərgahına yüksəldi.***

***Uca Tanrı Bəhruzun timsalında yurdumuzun ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərimizin ruhunu şad eləsin!***